# Rusiya parlamentinin nümayəndə heyəti Fəxri xiyabanı ziyarət edib

**Dekabrın 8-də ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurası sədrinin birinci müavini Andrey Yatskinin başçılıq etdiyi nümyəndə heyəti Fəxri xiyabana gələrək, xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə tər çiçəklər düzüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, ziyarət zamanı nümayəndə heyətini Milli Məclisin deputatları, Rusiya ilə əlaqələr üzrə işçi qrupunun üzvləri Mixail Zabelin, Ağalar Vəliyev və digər rəsmi şəxslər müşayiət ediblər.

***"Azərbaycan"***



Azərbaycan.- 2023.- 9 dekabr, № 269.- S.2.